UOT 32:93/94

QOŞQAR BAĞIROV
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
qoshqar.bagirov1977@gmail.com

MÜHARİBƏ VƏ SÜLH: REALLIQ VƏ TƏZADLAR

DOI: https://doi.org/10.36719/2708-065X/109/171-175

Dünyada hərbi və siyasi qarşıdurmaların artdığı indiki zamanda müharibə və sülh məsələləri aktuallıq kəsb edir. Hər ikisi insan amili ilə bağlı olan bu problemlər bəşəriyyəti narahat edən əsas məsələlər sırasındadır. Müharibənin qalibi sülhün uduzanı olmaq tezisi nə qədər özünü təsdiq edirsə də dünya ölkələrinin heç də hamısı bu reallığı qavramaq və başa düşmək istəmir. Bununla əlaqədar olaraq mütərəqqi fikirli qüvvələr, aparıcı beynəlxalq təşkilatlar vəziyyətdən çıxış yolu tapmaq və necə deyərlər, ziyanın yarısından qayıtmaq üçün cəhdlər göstərir, hərbi əməliyyatların dayandırılması, insanların kütləvi qırğının qarşısının alınması yönündə addımlar atılır. Tədqiqat işində müharibə və sülh məsələləri təhlil olunub, bu kontekstdə insan amili səbəb, müharibə üzündən yaranan hərtərəfli böhran isə nəticə kimi araşdırılıb.

Açar sözlər: Təhlükəsizlik Şurası, BMT, dövlət, müharibə, münaqişə, təcavüz, sülh, ordu, siyasət.

Giriş. Dövlət və cəmiyyətlərin təməl prinsiplərinə daxil olan sabitlik mühüm bir amil kimi mütərəqqi fikirli insanları həmişə düşündürüb. Belə ki, təhlükəsiz mühit olmadan rahat yaşamı təmin etmək qeyri-mümkündür. Bu məsələ hər bir dövr üçün aktual olub və indiki zamanda daha çox əhəmiyyət kəsb edir. Texniki vasitələrin inkişaf etdiyi fövqəl gücə malik olan silahların artdığı indiki zamanda insanların daha ağır təhlükələrlə üzləşməsi ehtimalı ciddi narahatlıq doğurur. Buna görə də aşırı gücün tətbiqi planetimizin gələcəyini sual altına ala bilər. Bu təhlükədən qaçmaq üçün isə humanizm nümayiş etdirmək, mümkün təhdidləri neytrallaşdırmaq vəzifəsi bəşəriyyəti düşündürən prioritet məsələlər sırasındadır. Silahlı qarşıdurmalar, artan münaqişələr fonunda üzləşdiyimiz vəziyyət öz ciddiliyini daha qabarıq göstərir və bu mühitdə tarazlığı qorumaq fəal diplomatik səy tələb edir. Dünyanın nizamının indiki texniki inkişaf mühitində pozulması aparıcı dövlətlərin məsuliyyətini daha da artırmalı, vəziyyətdən düzgün çıxış yolları müəyyənləşdirilməlidir. Əks təqdirdə geniş miqyaslı təhlükə qaçılmaz olacaq.

Əsas hissə. Müharibə və sülh problemi tarixin bütün dövrlərində bəşəriyyət üçün aktual olub. Dünya tarixi müxtəlif səbəblər üzündən baş vermiş minlərlə müharibəyə şahidlik edib. Səbəblərindən, miqyasından asılı olmayaraq bu silahlı qarşıdurmalar ayrı-ayrı xalqlar üçün fəlakət gətirib, insan itkilərinə, dağıntılara, iqtisadi tənəzzülə gətirib çıxarıb. İnsanlıq dramı fonunda baş verən təcavüzkarlıq, ərazi işğalı, iztirab və sıxıntılar bəşər övladını hələ də usandırmayıb. İki genişmiqyaslı-Birinci və İkinci dünya müharibələrini görən bəzi cəmiyyətlər bütün bu hadisələrdən ibrət götürməyib və ayrı-ayrı dövlətləri idarə edənlər ədalət prinsiplərini ciddi şəkildə pozaraq hərbi güc tətbiqinə rəvac veriblər. Getdikcə alovlanan münaqişə və müharibələri dayandırmaq isə ciddi problemə çevrilib. Beynəlxalq səviyyədə özünü qabarıq göstərən ikili standartlar, milli maraqlardan irəli gələn istəklər dünya nizamının pozulması, yeni-yeni münaqişə ocaqlarının yaranması ilə nəticələnir. "Müharibələr bəşəriyyəti yaranışından müşayiət edən, nə qədər arzu olunmaz sayılsa da, onun yol yoldaşına çevrilən fenomen-hadisələr sırasına daxildir. Tarixdə müharibənin olmadığı dövrlərə rast gəlmək çətindir, praktiki olaraq qeyri mümkündür. Yalnız onun miqyas və qurbanlarının fəlakətli həddə çatdığı və nisbətən az olduğu nadir illərdən danışmaq mümkündür" [4, s.16].

Dünyada humanizmi təbliğ etmək, bəşəriyyəti təhlükələrdən çəkindirmək və sülhü qorumaq üçün Sülh günü də təsis edilib. Bu tarix hər ilin 21 sentyab günüdür və onu BMT təsis edib. Beynəlxalq Sülh günü hər ilin həmin tarixində BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında olan "Sülh Zəngi"nin çalınması ilə başlanılır və ümumdünya atəşkəs günü elan olunur. Lakin həyat təzadlarla doludur. Sülh, əmin-amanlıq və humanizmdən nə qədər çox danışılsa da dünyada münaqişə, müharibə və digər qarşıdurma halları da artan tendensiya ilə davam edir. Bunun bir səbəbi də hərbi xərclərin artı-

rılmasıdır, silah və yeni hərbi texnikaların istehsalı, onun tətbiqinə zərurət yaradılmasıdır. Dünyanın aparıcı ölkələri sanki bununla bağlı yarışa giriblər. Səsdən iti raketlərin istehsalı, modern hərbi qırıcılar və raketdən müdafiə sistemlərinin yenilənməsi, hətta Ayda nüvə silahının yerləşdirilməsi istəyinin meydana çıxması dediklərimizin sübutudur. Statistikaya nəzər saldıqda da hərbi xərclərin artdığını görməmək mümkün deyil. Beləki, 2023-cü ildə dünya üzrə hərbi xərclər 2 trilyon 443 milyard dollar olub ki, bu, 2022-ci ilə nisbətən 6,8 % artıqdır. Bu məlumatlar Stokholm Sülh Tədqiqatları İnstitutunun hazırladığı hesabatda yer alıb. O da bildirilir ki, 2023-cü ilin hərbi xərcləri dünya üzrə ümumi daxili məhsulun 2,3 faizini təşkil edib. Hərbi xərcləri daha çox artıran ölkələr isə ABŞ və Çindir.

Hazırda dünyada bir neçə münaqişə ocağı mövcuddur. Bunlar dövlətlərarası müharibə və vətəndaş müharibəsi kimi xarakterizə edilir. Rusiya-Ukrayna və İsrail-Fələstin müharibələri özünü daha qabarıq göstərir. Vətəndaş müharibələri isə Yəmən, Sudan və Myanmada gedir. Bu münaqişləri passiv müharibə də adlandırmaq olar. Çünki onlar vaxtaşırı alovlanır və sonra səngiyir.

Rusiya Ukraynadakı müharibəni xüsusi hərbi əməliyyat adlandırsa da bu, genişmiqyaslı silahlı qarşıdurmadır. Onu da deyək ki, bu qarşıdurma Qərb ölkələrinin də rəsmi Moskva ilə münasibətlərinin pozulmasına səbəb olub. Bu kontekstdə NATO dövlətləri Ukraynaya silah, sursat və hərbi texnika ilə dəstək verir. Bununla belə Rusiyanın mövqeyini müdafiə edən dövlətlər də var. Qlobal gücə çevrilən Çin Xalq Respublikası və Şimali Koreya rəsmi Moskva ilə siyasi həmrəylik nümayiş etdirir. Qərb dövlətlərinin münaqişəyə qoşulması ehtimalı Rusiyanı qıcıqlandırır və təhdidlərə cavab verilməsi zərurəti meydana çıxır. Qərb dövlətlərinin Ramştayn formatında Ukraynaya geniş miqyasda hərbi yardımı Rusiyanın bu bloka qarşı kəskin mövqe sərgiləmək ehtimalını artırır və hətta nüvə silahından istifadə məsələsini gündəmə gətirir. Hadisələrin gedişindən belə nəticəyə gəlmək olar ki, ABŞ və ümumilikdə Qərb Rusiyanı çökdürmək niyyətində, Rusiya isə bütün resurslarından istifadə etməklə qələbə qazanmaq istəyindədir. "Müharibə bir qayda olaraq, iki leqal silahlı qüvvələrə malik olan subyektlər arasında, yəni, dövlətlər arasında baş verir. Müharibənin mahiyyətinə dair bizə tanış olan yanaşma artıq universallığını itirməkdədir" [5, s.19].

Rusiya-Ukrayna müharibəsində sülhə nail olmaq cəhdləri hazırda demək olar ki, edilmir. Münaqişənin ilk mərhələsində BMT və Türkiyə sülhün əldə olunmasına təşəbbüs göstərdi. "Taxıl dəhlizinin yaradılması və dünyada taxıl böhranının aradan qaldırılması ideyası reallaşsa da sülh təşəbbüsü real nəticə vermədi. Çünki həm Qərb, həm də Rusiya öz maraqları naminə geriyə addım atmadı.

Dövrümüzün ən narahatedici proseslərindən biri də İsrail-Fələstin münaqişəsidir. Məlum olduğu kimi, bu qarşıdurma ötən əsrin 60-cı illərində başlayıb. Fələstin hələ o zamandan dövlətçilik uğrunda mübarizə aparır. Yaxın Şərq münaqişəsinin həllində maraqlı olıan Ərəb dövlətləri hələ buna nail ola bilməyiblər. Burada da bəzi Qərb dövlətlərinin İsrailə dəstəyi özünü açıq şəkildə biruzə verməkdədir. ABŞ-ın İsrailin mövqeyini müdafiə etməsi bu regionda sülhün qorunmasına mənfi təsir edir. BMT və ədalət tərəfdarı olan ölkələr Yaxın Şərqdə "İki dövlət" prinsipi üzrə Fələstinin müstəqilliyini qəbul edir və buna çalışırlar. Son zamanlar bəzi Qərb ölkələrinin Fələstini dövlət kimi tanıması bunun sübutudur. Bununla belə, rəsmi Təl-Əviv hərbi əməliyyatlarını "Həmas" və "Hizbullah" qruplaşmalarına qarşı apardığını bəyan edir, özünün haqlı olduğunu bildirir. Müharibədən və münaqişədən daha çox əziyyət çəkən isə Fələstin xalqıdır. Qəzza və Rəfahda gedən müharibə 35 mindən çox dinc sakinin həlak olasına, 70 mindən çox insanın yaralanmasına səbəb olub.

Həm Rusiya-Ukrayna, həm də İsrail-Fələstin münaqişəsində Azərbaycan və Türkiyə ədalətlilik prinsipindən çıxış edərək həm Ukraynanın ərazi bütövlüyünü, həm də Fələstinin müstəqilliyini tanıyıblar. Çünki, bu məsələlərdə qeyri-obyektivlik dünya nizamına zərər gətirən addım olardı. Türkiyə və Azərbaycan terrordan əziyyət çəkən dövlətlər kimi, müharibə və sülhün dəyərini hamıdan yaxşı başa düşür. Türkiyənin PKK, YPD və PYD-yə qarşı apardığı mübarizə uzun illərdir ki, davam edir. Həmçinin, bu məsələdə ABŞ VƏ Qərbin, bəzən də Rusiyanın ikibaşlı siyasətinin özünü göstərməsi, Birləşmiş Ştatların terrorçulara dəstək verməsi bu işə müəyyən xələl gətirsə də rəsmi Ankara öz mövqeyində israrlıdır. Prezident Rəcəb Tayyib Ərdoğanın özünün də dediyi kimi,Türkiyə hər zaman məzlumların yanındadır və hər yerdə haqqı müdafiə edir.

1988-ci ildən başlayaraq Ermənistanın təcavüzü ilə üzləşən Azərbaycan da hər bir məsələdə özünün haqlı mövqeyini ortaya qoyub, ədalətin zəfər çalması üçün səy göstərib və göstərir. Elə bu səylərin nəticəsidir ki, ölkəmizin nüfuzu dünyada artıb və onun apardığı siyasət dəstəklənir. Bu nüfuz

isə Ermənistan-Azərbaycan münaqişəsinin həllli və müharibəyə son qoyulması ilə qazanılıb. Beləki Azərbaycan haqlı mövqeyi və sülhpərvər fəaliyyəti ilə tanınıb. "Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin 7-ci fəslinə əsasən qəbul etdiyi qərarlar beynəlxalq məsuliyyətin bütün hüquqi funksiyalarını təşkil edir. Bu, o deməkdir ki, TŞ-nın məcburi tədbirlər görmək, bu tədbirlərin təsirsiz qaldığı hallarda isə BMT Nizamnaməsinin 42-ci maddəsinə uyğun olaraq beynəlxalq sülh və təhlükəsizliyi qorumaq üçün silahlı qüvvələrdən istifadə etmək haqqı vardır" [3, s.111].

Bununla belə, BMT Təhlükəsilzik Şurasının Ermənistanın Silahlı Qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən çıxmasını tələb edən məlum 4 qətnaməsinin tələblərinin icra olunmaması ölkəmizin özünün bu məsələni həll etməsi zərurətini yaratdı. Azərbaycan BMT Nizamnaməsinin tələbləri əsasında cavab tədbirləri gördü və ərazi bütövlüyünü təmin etdi.

Azərbaycanın sülhpərvər siyasəti özünün üzləşdiyi Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsində daha qabarıq göstərir. Beləki Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış bu qarşıdurmaya 30 ilə yaxın bir müddətdən sonra son qoyuldu. Münaqişə və müharibədən böyük ziyan çəkən, çox sayda insan itkisi,maddi itki, dağıntı və ekoloji terrora məruz qalan ölkəmiz nəhayət, öz qanunu haqqını əldə etdi, təcavüzkarı cəzalandırdı. Vətən müharibəsində Böyük Zəfər qazanan Azərbaycan üstün tərəf olmasına baxmayaraq yenə də humanistlik göstərdi, sülh təşəbbüsü ilə çıxış etdi, Ermənistana sülh əlini uzatdı. Halbuki, ölkəmiz qalib tərəf kimi sərt tələblər irəli sürə,hərbi əməliyyatları davam etdirə bilərdi. Çünki, rəsmi İrəvan 2020-ci ilin noyabrında Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatın tələblərini yerinə yetirmir, puzuculuq mövqeyi tutur, təxribatlar törədirdi. Bu cür hallar Azərbaycanın təkrarən hərbi gücdən istifadə etməsinə qanunu əsaslar yaradırdı. Lakin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev səbr nümayiş etdirərək öz təbirincə desək, "nəyi nə zaman və necə etməyi" yaxşı bilirdi. Bu nöqteyi-nəzərdən qaçılmaz olan antiterror əməliyyatı da məqamında verilmiş qərar idi və bu tədbir heç bir mülki insan itkisi və dağıntılar olmadan icra edildi, cəmi 23 saata sona çatdırıldı. "Əməliyyat başlanmazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir ziyan dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır" [2]. Bu, bir daha göstərir ki, Azərbaycan və onun rəhbəri İlham Əliyev hər bir zaman ədalətli, humanist və barışdırıcı mövqe tutur, buna qarşılıq verilməyəndə isə sərt tədbirlər görmək məcburiyyətində qalır.

Azərbaycan 44 günlük Vətən müharibəsi, 1 sutkalıq antiterror tədbiri və sülh danışıqlarına başlanılmasında yanaşmalarına görə dünya təcrübəsində yeni presedent yaratdı. Beləki, BMT qətnamələrinin icrasının təmin olunmadığı, ATƏT-in Minsk Qrupundakı vasitəçilərin uzun illər həll edə bilmədiyi münaqişəni ölkə prezidenti İlham Əliyev öz iradəsi, Azərbaycan Ordusunun rəşadəti, Xalq-Prezident-Ordu həmrəyliyi sayəsində sona çatdırmaqla bərabər, vasitəçilərsiz danışıqlar, sərhədlərin delimitasiya və demarkasiyası prosesinin başlanılması ilə dünya təcrübəsində yeniliyə imza atdı. Ermənistanda bəzi qüvvələrin revanş istəyi və ayrı-ayrı dövlətlərin öz maraqları naminə Cənubi Qafqazda yeni münaqişə yaratmaq planlarına rəğmən, Azərbaycan tərəfindən previntiv addımların atılması bizə qarşı hazırlanmış planların iflası ilə nəticələndi. Regionumuzda hadisələrin bu cür müsbət yöndə davam edəcəyi təqdirdə Ermənistanla sülh danışıqlarının sağlam mühitdə gedəcəyinə inamı artırır və bölgənin gələcəyi, onun iqtisadi inkişafına zəmin yaradacağını deməyə əsas verir. Azərbaycanın Qazax rayonunun işğal alıtında olan 4 kəndi-Bağanis-Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızıl Hacılı kəndlərinin danışıqlar vasitəsi ilə geri qaytarılması hadisələrin müsbət məcrada getdiyini və Ermənistanın sülh prosesinin qaçılmaz olduğunu başa düşməsinə işarədir.

Azərbaycan hələ münaqişənin ilk illərindən problemlərin sülh və danışıqlar yolu ilə həllinə tərəfdar olub, bu gün də bu mövqedən çıxış edir. Ölkə prezidenti İlham Əliyev müvafiq tədbirlərdə və görüşlərdə həmişə bildirib ki, Azərbaycan heç vaxt müharibə tərəfdarı olmayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2024-cü il mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edərkən sakinlərlə görüş zamanı bu fikri bir daha səsləndirdi: "Biz heç vaxt müharibə istəməmişik. Bizə müharibə lazım deyil, bizə torpağımız lazım idi. Minsk Qrupunun 28 ildəki fəa-

liyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir.Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd etmişdilər" [1].

Göründüyü kimi, Azərbaycan xalqı və onun rəhbərliyi hər zaman sülh yolunu tutub, bölgədə və dünyada sabitliyin, əmin-amanlığın bərpa olunması,tərəqqi və inkişafa çalışıb və bu kursun davam etdirilməsində israrlıdır. Çünki, sülh və sabitlik hərtərəfli inkişafın təminatçısı, sosial rifahın zəmini, xoş gələcəyin möhkəm əsaslar üzərində qurulmasının əsas şərtləridir.

Nəticə. Elmi-texniki tərəqqi, sənaye inqilabı iqtisadi dividentlərlə bərabər, dünya ölkələrinə müəyyən problemlər də gətirmişdir. Beləki, bu inkişaf həm də təhlükəli silahların, hərbi-texniki vasitələrin yaradılmasına da yol açmış, təhlükə mənbələrini artırmışdır. Bu cür mühitdə silahlı qarşıdurma ehtimalları da artmış, sabitliyə təhdidlər çoxalmışdır. Bu baxımdan müharibə və sülh indi özünü daha qabarıq göstərir. Tədqiqat işində dünya nizamına ciddi təsir edən münaqişə və müharibələrin acı sonluqları barədə tarixi dərslər və sülhün zəruriliyi barədə fikirlər öz əksini tapmış, ayrı-ayrı dövrlərdə baş vermiş müharibələr təhlil olunmuş, sülhə alternativin olmadığı vurğulanmışdır. Beynəlxalq münasibətlər sistemindəki boşluqlar, ikili standartların dünya nizamına mənfi təsirləri faktlar əsasında araşdırılmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2024-cü il mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər. - https://president.az/az/articles/view/65801 [25.04.2025].
2.Azərbaycan Respublikasının prezidenti İlham Əliyev xalqa müraciət edib. - https://president.az/az/articles/view/61113 [25.04.2025].
3. Əlişanova A. Qarabağ münaqişəsi və beynəlxalq təşkilatların fəaliyyəti // "Sosial elmlər" jurnalı, Bakı, 2021, №2, s.110-119.
4. Quliyev B. Dövlətlərarası münasibətlərdə hərbi amillərin dinamikası (sosial-fəlsəfi təhlil). Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, AMEA-nın mətbəəsi, 2018, 50 s.
5. Mirbəşiroğlu E. Müasir siyasi münaqişələrin nəzəri aspektləri və həlli texnologiyaları. Siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, AMEA-nın mətbəəsi, 2018, 52 s.

ГОШГАР БАГИРОВ
Научный сотрудник Института философии и социологии НАНА

ВОЙНА И МИР: РЕАЛЬНОСТЬ И КОНТРАСТЫ

В нынешнее время, когда участились военные и политические конфликтыв мире, вопросы войны и мира имею существенное значение. Обе эти проблемы, связанные с человеческим фактором, относятся к числу основных вопросов, волнующих человечество. По мнению автора, как бы ни подтверждал себя тезис о победителе в войне и проигравшем в мире, не все страны мира хотят осознать и понять эту реальность. В связи с этим прогрессивно мыслящие силы, и ведущие международные организации предпринимают попытки найти выход из ситуации и, как говорится, оправиться от половины ущерба, предпринимают шаги для приостановления военных операций, предотвращения массового уничтожения людей. В исследовательской работе анализируются вопросы войны и мира, в этом контексте человеческий фактор рассматривался как причина, а всесторонний кризис, вызванный войной, рассматривался как следствие. Нашли свое отражение исторические уроки о горьких последствиях конфликтов и войн, серьезно влияющие на мировой порядок, проанализированы войны, происходившие в различные периоды времени подчеркнуто, что альтернативы миру нет.

Ключевые слова: Совет Безопасности, ООН, государство, война, конфликт, агрессия, мир, армия, политика

GOSHGAR BAGIROV
Researcher at the Institute of Philosophy and Sociology of ANAS

WAR AND PEACE: REALITY AND CONTRASTS

The issues of war and peace are becoming relevant in the current era of increasing military and political conflicts in the world. Both of these problems, which are related to the human factor, are among the main issues that concern humanity. According to the author, no matter how much the thesis of being the winner of war and the loser of peace proves itself, not all countries of the world want to perceive and understand this reality. In this regard, progressive-minded forces and leading international organizations are making attempts to find a way out of the situation and, as they say, to return from half the damage, steps are being taken to stop military operations and prevent mass killings of people. The issues of war and peace were analyzed in the research work, and in this context, the human factor was examined as a cause, and the comprehensive crisis arising from the war was examined as a result. Historical lessons about the bitter consequences of conflicts and wars that seriously affect the world order and ideas about the necessity of peace were reflected, wars that occurred in different periods were analyzed, and it was emphasized that there is no alternative to peace.

Keywords: Security Council, U.N.O., state, war, conflict, aggression, peace, army, politics.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi:15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Elşad Həsənov, s.e.d. Adil Mirabdullayev.